# "Turkey" yox, "Türkiye"!

## Qardaş ölkənin beynəlxalq adı - xarici dillərdə yazılışı dəyişdirildi

**Qardaş Türkiyə Respublikasının beynəlxalq adı dəyişdirilir. Rəsmi Ankaranın BMT-nin baş katibinə ünvanlanmış məktubunda dövlətin adının beynəlxalq təşkilata üzv ölkələrdə xarici dillərdə yeni yazılışının "Türkiye" kimi təsdiqlənməsi istənilir.**






Bildirilir ki, tələb təmin olunarsa, beynəlxalq forumlarda və rəsmi sənədlərdə əvvəllər yayılmış başqa adlar yerinə "Türkiye" adı istifadə olunacaq.

### Türkiyənin dünyadakı nüfuzu daha da artır

Bu yenilik Ankaranın ölkənin beynəlxalq aləmdə nüfuzunun artırılmasına yönəlmiş addımları çərçivəsində qəbul edilib.

Rəsmi Ankaranın Türkiyə adının xarici dillərdə yazılışının dəyişdirilməsi ilə bağlı BMT-yə etdiyi rəsmi müraciətlə bağlı məlumat verən qardaş ölkənin xarici işlər naziri Mövlud Çavuşoğlu rəsmi tviter hesabında qeyd edib ki, BMT-nin baş katibinə ünvanlanmış məktubda məsələyə aydınlıq gətirilib: "Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə ölkəmizin brendinin nüfuzunu artırmaq üçün başladığımız proses sona çatmaq üzrədir. Bu gün BMT-nin baş katibinə göndərdiyim məktubla ölkəmizin xarici dillərdə adını BMT-də "Türkiye" olaraq qeyd edirik. Bu, bizim üçün xeyirli olsun!"

Anadolu Dövlət Agentliyinin verdiyi xəbərə əsasən, mayın 31-də Türkiyə Birləşmiş Millətlər Təşkilatına və digər beynəlxalq strukturlara ölkənin adının ingilis dilində yazılışının dəyişdirilməsi ilə bağlı rəsmi müraciət təqdim edib. Xarici işlər naziri Mövlud Çavuşoğlunun məktubunda Türkiyə hökuməti tərəfindən bütün beynəlxalq forumlarda ingilisləşmiş "Turkey" əvəzinə "Türkiye" adının istifadəsi BMT-dən rəsmi şəkildə tələb olunur.

"Prezident Administrasiyasının Əlaqələr İdarəsi ilə birlikdə bunun üçün yaxşı zəmin hazırlaya bildik. Biz BMT və digər beynəlxalq təşkilatlara və ölkələrə "Türkiye"nin istifadəsinə keçidi görmək imkanı verdik", - deyə Çavuşoğlu bildirib.

Türkiyə diplomatiyasının rəhbəri milli aviadaşıyıcı Türk Hava Yollarının "Salam Türkiye" adlı reklam kampaniyasına da diqqət çəkib. Onun dediyinə görə, bütün dünyada 30 milyondan çox insan artıq bu reklamla tanış olub.

Nazir əlavə edib ki, bundan sonra Türkiyədə istehsal olunan mallara "Made in Turkey" yox, "Made in Türkiye" etiketi vurulacaq.

### Rəcəb Tayyib Ərdoğan: Yeni ad türk millətinin dəyərlərini təmsil və ifadə edir

Xatırladaq ki, hər cür fəaliyyətdə və ixrac məhsullarında yazışmalarda marka olaraq "Made in Turkey" ifadəsinin yerinə "Made in Türkiye" ifadəsindən istifadə edilməsi ilə bağlı Prezidentin sərəncamı ötən il dekabrın 4-də "Rəsmi qəzet"də dərc olunub.

Rəcəb Tayyib Ərdoğanın imzaladığı sənəddə deyilir: "Türkiyə Cümhuriyyəti minillik dövlət ənənəsinin işığında qədim türk millətinə yaraşan keyfiyyətli və dəyərli işlər həyata keçirərək, millətin mədəniyyətini və dəyərlərini qoruyub saxlamağı və tərənnüm etməyi özünün başlıca vəzifələrindən biri hesab edir. "Türkiye" brendi milli və beynəlxalq mediada ölkənin başlıca brendi kimi qəbul edilir. "Türkiye" ifadəsi türk millətinin mədəniyyətini, sivilizasiyasını və dəyərlərini ən yaxşı şəkildə təmsil və ifadə edir. Hər cür fəaliyyət və yazışmalarda "Türkiye" ifadəsi işlədiləcək".

Bildirilir ki, beynəlxalq ticarətdə ölkənin qüruru olan məhsullar "Türkiye" ifadəsi ilə bütün dünyada tanıdılacaq: "Bundan sonra dövlətimizin və millətimizin minillik təcrübəsini dünya bazarlarında təmsil etmək qarşıya məqsəd qoyulub".

Türkiyə BMT, NATO, BVF və Dünya Bankının üzvü, həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, ATƏT, QDİƏT, İƏT və "Böyük 20"lik kimi təşkilatların qurucu üzvüdür. Türkiyə 1949-cu ildən Avropa Şurası, 1963-cü ildən Avropa İqtisadi Birliyi, 1995-ci ildən Avropa İttifaqı Gömrük Birliyinin üzvü kimi fəaliyyət göstərir. 2005-ci ildən etibarən ölkənin Avropa İttifaqına daxil olması ilə əlaqədar danışıqlar başlayıb. Hazırda Türkiyə böyüyən iqtisadiyyatı və diplomatik təşəbbüsləri sayəsində regional güc mərkəzi olaraq qəbul edilir.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2022.- 2 iyun.- S.12.